# FƏNN OLiMPiADALARI KEÇiRiLiB

Yazan Rəhbərlik
20.12.19 11:32 - axırıncı dəyişikliklər 20.12.19 11:42




19 dekabr 2019-cu il tarixdə ADPU-nun Şəki Filialında mövcud ixtisaslar üzrə tələbələr arasında fənn olimpiadaları keçirilib. Olimpiadada pedaqoji fakültə üzrə 61 nəfər, o cümlədən “İbtidai sinif müəllimliyi” ixtisası üzrə 6, “Təhsildə sosial psixoloji xidmət” ixtisası üzrə 10, “Məktəbəqədər təlim və tərbiyə” ixtisası üzrə 4, “Tarix və coğrafiya müəllimliyi” ixtisası üzrə 11, “Riyaziyyat və informatika müəllimliyi” ixtisası üzrə 30 tələbə iştirak edib. Filologiya fakültəsi üzrə 61 nəfər, o cümlədən “Azərbaycan dili və ədəbiyyatı müəllimliyi” ixtisası üzrə 25, “Xarici dil (ingilis dili) müəllimliyi” ixtisası üzrə 21, Xarici dil (fransız dili) müəllimliyi ixtisası üzrə 15 nəfər olmaqla, ümumilikdə filial üzrə 122 tələbə iştirak edib. 2 saat davam edən olimpiadada İştirakçılar azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, informatika, informasiyanın mühavizəsi, pedaqogika, psixologiya, ingilis dili və fransız dili üzrə təqdim olunmuş sual və tapşırığı cavablandırıblar. Cavablar yoxlandıqdan sonra qaliblərin I, II, III dərəcəli diplomlarla mükafatlandırılması nəzərdə tutulub.

